

# Görkəmli sənətşünas, istedadlı alim, təvazökar insan

**_Müasir Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrindən biri, respublikamızın tanınmış elm xadimi, sənətşünaslıq doktoru, professor Nurəddin Həbibov ömrünün 83-cü ilində vəfat etmişdir._**

**_... Hələ tələbə ikən müəllimi professor Mikayıl Rəfilinin təşəbbüsü ilə «Nizami sənət və sənətkarlıq haqqında» adlı ilk samballı məqaləsini yazmış və onu «Nizami» almanaxında dərc etdirmişdir._**

Həmin dövrdən başlayaraq o, bədii tənqid və sənətşünaslıq sahəsində fəal çalışmış, müasir Azərbaycan təsviri sənətinin inkişaf problemlərinin ardıcıl tədqiqi ilə məşğul olmuşdur.

N.Həbibovun kitabları dəfələrlə Moskvada "Советский художник", "Искусство" və "Изобразительное искусство" nəşriyyatları tərəfindən çap edilmiş, məqalələri "Творчество", "Искусство", "Советская литература", "Искусство" Sofiya jurnallarında, "Советская культура" qəzeti səhifələrində işıq üzü görmüşdür.

N.Həbibov 1953-1956-cı illərdə Azərbaycan Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun aspirantı olmuş, 1958-ci ildə namizədlik, 1970-ci ildə isə doktorluq dissertasiyalarını müdafiə etmiş, 1984-cü ildə professor adına layiq görülmüşdür. Milli Elmlər Akademiyasında kiçik elmi işçidən şöbə müdiri vəzifəsinə qədər şərəfli bir yol keçmiş və müasir təsviri sənətimizin tarixi inkişaf mərhələlərini, növ və janrlarını, aktual yaradıcılıq problemlərini, ayrı-ayrı sənətkarların əsərlərini tədqiq və təbliğ etmişdir. O görkəmli rəssamlarımızdan M.Abdullayevin, B.Mirzəzadənin, T.Tağıyevin, S.Şərifzadənin, A. Cəfərovun, H.Haqverdiyevin yaradıcılığına həsr edilmiş monoqrafiyaların, R.Mustafayev, S.Bəhlulzadə, V.Səmədova, Q.Xalıqov, T.Salahov, S.Salamzadə, N.Əbdürrəhmanov, B.Əliyev və digər rəssamlar haqqında məqalələrin müəllifidir.

Nurəddin Davud oğlu Həbibov 1923-cü il mayın 5-də Qusar rayonunun Həzrə kəndində anadan olmuşdur.

Quba pedaqoji məktəbini bitirdikdən sonra 1941-42-ci illərdə Qusarda rayon qəzetinin məsul katibi vəzifəsində çalışmışdır. İkinci dünya müharibəsində, Şimali Qafqaz və Krım cəbhələrində hərbi döyüşlərdə, Mozdok, Novorossiysk, Kerç şəhərlərinin azad edilməsində iştirak etmiş, yaralanmış, 1-ci dərəcəli «Vətən müharibəsi» ordeni, «Döyüş xidmətlərinə görə», «Qafqazın müdafiəsinə görə» və digər medallarla təltif olunmuşdur.

Təhsil və müharibə illərində gənc Nurəddin rəssamlığa böyük maraq göstərmiş, Soçi şəhərindəki bədii emalatxanalarda çalışmışdır.

1947-1951-ci illərdə N.Həbibov Leninqrad Dövlət Universitetinin incəsənət tarixi şöbəsində təhsilini davam etdirmiş, Bakıya qayıdan kimi böyük həvəslə bədii tənqid və sənətşünaslıq sahəsində çalışmağa başlamış, Ə.Əzimzadə adına Rəssamlıq məktəbində işləmişdir. Rəssamlar İttifaqında tənqid bölməsinə rəhbərlik etmiş, Mədəniyyət Nazirliyində fəaliyyət göstərmişdir.

N.Həbibovun tədqiqatlarında XX əsr Azərbaycan rəssamlıq sənətinin tarixi inkişaf yolu öz dolğun əksini tapmışdır. Janr və mövzu etibarilə müxtəlif, rəngarəng, məzmunca dərin məqalələrində, publisistik çıxışlarında Azərbaycan təsviri sənətinin nailiyyətlərini təbliğ etmişdir. Bu baxımdan onun «Sovet Azərbaycanının incəsənəti» (Moskva, 1960), «Mikayıl Abdullayev» (Moskva, 1969), «Azərbaycan sovet rəssamlığı» (Bakı, 1966), «Azərbaycan SSR-in incəsənəti» (Bakı, 1978), «Asəf Cəfərov» (Moskva, 1980), «Sovet Azərbaycan rəngkarlığı» (Bakı, 1984), «Azərbaycan incəsənəti» (Bakı, 1992), «Füzuli dünyası rəsmlərdə» (Bakı, 1996) və s. kitabları, Azərbaycan tarixi 10 cildliyi, SSRİ xalqlarının incəsənət tarixi və ASE üçün yazdığı 400-dən artıq məqaləsi onun çoxillik elmi və yaradıcılıq fəaliyyətinin məhsuludur. «Rəssamlıqdan söhbət» (Bakı, 1961), «Bədii zövq haqqında» (Bakı, 1962), «Təsviri sənət haqqında» (Bakı, 1967), «Mikelancelo» (Bakı, 1978) kimi kitabları oxucuların rəğbətini qazanmışdır.

Bədii tənqid və sənətşünaslıqla yanaşı, N.Həbibov pedaqoji fəaliyyətlə də məşğul olmuş, 1973-1988-ci illərdə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında, 1995-ci ildən isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində çalışmış, professor adına layiq görülmüş, milli kadrların hazırlanmasına xeyli əmək sərf etmiş, 5 sənətşünaslıq namizədi hazırlamış, 8 aspirant və dissertantın elmi rəhbəri olmuşdur.

Görkəmli sənətşünas Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının eksperti, ASE incəsənət redaksiyasının elmi məsləhətçisi, Azərbaycan Rəssamlar İttifaqı Rəyasət Heyətinin üzvü və Tənqid bölməsinin sədri, Memarlıq və İncəsənət İnstitutunun, Azərbaycan Dövlət İncəsənət İnstitutunun və Azərbaycan Dövlət İncəsənət muzeyinin elmi şuralarının üzvü idi.

O, mətbuat və kütləvi informasiya vasitələrində incəsənətin təbliği ilə ardıcıl məşğul olurdu. Respublikada və xarici ölkələrdə keçirilən elmi, nəzəri konfransların və simpoziumların daimi iştirakçısı idi.

İstedadlı və nəcib şəxsiyyət, böyük insan, təcrübəli alim, gözəl ailə başçısı, qayğıkeş ata və baba Nurəddin müəllimin əziz xatirəsi onu sevənlərin qəlbində həmişə yaşayacaqdır.

*Azadə HÜSEYNOVA,*
*Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Muzey işi sektorunun müdiri vəzifəsini icra edən*